# Şuşaya uzanan yol

## "Ədəbiyyat qəzeti"ndə çıxan iki yazının xülasəsi



İlqar FƏHMİ

May ayında Şuşada keçirilən "Xarıbülbül" festivalının sonunda ölkə başçısı cənab İlham Əliyev səhnəyə çıxıb bütün ifaçılara bir-bir təşəkkür etdi. Sonda isə yenə də... "Şuşa, sən azadsan", "Qarabağ Azərbaycandır" sədaları...

İlk baxışdan sual oluna bilər ki, burda qeyri-adi nə var ki? Ölkə başçısı hərbçilərlə, sadə insanlarla demək olar ki, bütün görüşlərinin sonunu məhz bu cür bitirir...

Bəli, elədi... Lakin məhz Şuşada olarkən bu sözləri deyən zaman onun simasındakı sonsuz sevinc, qürur və fərəh hissini yaxından seyr elədim. Və mənə elə gəldi ki, Şuşa yarım il əvvəl yox, məhz elə bu gün azad edilib.

Yarım il az vaxt deyil. Sadə məntiqlə götürəndə qələbənin gətirdiyi sevinc, fərəh, qürur hissi artıq müəyyən qədər sakitləşməliydi. Hər halda öz ətrafımızda bu halı görürük... Aylar keçir, hər şey bizim üçün adiləşir, hətta hərdən elə gəlir ki, Şuşada elə həmişə bizim bayrağımız dalğalanıb, otuz illik işğal dövrü də olmayıb, o qanlı müharibə də...

Toplumun xarakteri belədir, neyləmək olar... Tez alışıb, tez də sakitləşmək...

Lakin Şuşada, Cıdır düzündə yumruğunu havaya qaldırıb, "Qarabağ Azərbaycandır" deyərkən ölkə başçısının simasındakı ifadəni yaxından seyr edəndə anladım ki, bizdən fərqli olaraq, məhz onun üçün bu şanlı zəfər heç vaxt adiləşməyəcək, heç vaxt sıravi bir tarixi fakt olmayacaq...

Niyə? Çünki bu şanlı zəfərin əldə edilməsi üçün hələ 44 günlük müharibədən də əvvəl necə uzunmüddətli bir pərdəarxası mübarizə getdiyini, təbii ki, hamıdan yaxşı o bilirdi.

Bu illər ərzində Qarabağ problemini ermənilərin xeyrinə həll etməyə çalışan dünya güclərinin təzyiqləri, Azərbaycanın iqtisadi inkişafının qarşısını almaq istəyən bədxahların fitnəkarlıqları, üzümüzə gülərək ölkəyə gələn Qərb diplomatlarının üstüörtülü təkidləri və daha nələr, nələr...

Bu iyirmi altı illik mübarizənin görünməyən tərəfləri barədə yəqin ki, illər sonra cild-cild kitablar yazılacaq. Bu mübarizə yolunun ön sırasında isə əvvəl Heydər Əliyev, son 16 ildə isə İlham Əliyev dayanırdı.

İşğal müddəti uzandıqca, illər keçdikcə daha da arxayınlaşaraq həyasızlaşan ermənilərin və onların havadarlarının bütün yalanlarını, fitnələrini, riyakarlığını, rəzalətlərini ilk olaraq o görürdü... Bütün bu illər ərzində məğlubedilməzlik mifinə bürünmüş erməni siyasətçilərinin o lovğa odası, özündənrazı davranışı, sonsuz təkəbbürü ilk olaraq ona təsir edirdi - qəzəbləndirirdi, dişləri sıxılırdı, yumruğu düyünlənirdi - lakin əsl diplomat kimi təmkinini saxlayaraq öz daxili qəzəbini heç kimə hiss etdirmirdi.

Çünki nəyi nə vaxt və necə etməyi o, hamımızdan yaxşı bilirdi... Bilirdi ki, apardığı uzunillik mübarizə bəhrəsini verməkdədir. Müxtəlif diplomatiya müstəvilərində qələbə ardınca qələbə qazanılır. Xalqımız şanlı zəfərə addım-addım yaxınlaşır. Azərbaycan iqtisadi və hərbi cəhətdən getdikcə güclənir, dünya səviyyəsində tanınan regional güc mərkəzinə çevrilir, Ermənistan isə öz qəsbkarlığının acı bəhərini yeyərək getgedə zəifləyir... Çox qalmayıb, vaxt gələcək bu çaqqalların bütün lovğa odası, təkəbbürlü davranışı yerə çırpılan şüşə kimi çilikçilik olacaq.

Onun içindəki qəzəb və hirs gücləndikcə, mübarizə əzmi bir az da artırdı, Dəmir yumruq ağırlaşırdı, sərtləşirdi... Sarkisyanlar, Paşinyanlar başa düşmürdülər ki, onu daha çox qəzəbləndirməklə, öz başlarına enəcək Dəmir yumruğu bir az da ağırlaşdırırlar...

**Haşiyə:** Bir neçə gün öncə Youtube kanalında iyirmi il əvvəl Heydər Əliyevlə Koçaryanın danışıqlarını əks etdirən videoçarxa rast gəldim. Təsadüf elə gətirmişdi ki, bu rolikin altında da həmin Koçaryanın bir neçə ay əvvəl Rusiya kanallarından birində Poznerə verdiyi müsahibə yerləşdirilmişdi... Özümü saxlaya bilməyib görüntünü skrin elədim...

İlk görüntüdə, danışıqlardan sonra Heydər Əliyevlə birgə mətbuat konfransında iştirak edən Koçaryanın oturuş tərzi, sifətinin ifadəsi, danışıq odası məni çox qəzəbləndirdi. Nədənsə, məhz həmin məqamda fikrimə gəldi ki, görəsən, o vaxt bu görüntünü müşahidə edən İlham Əliyevin ürəyindən hansı hisslər keçib... Sən haranın küçüyüsən ki, Heydər Əliyevin qarşısında belə lovğa oda ilə oturasan? Sən haranın çaqqalısan ki, Heydər Əliyevlə belə bərabər tərzdə danışasan? Sən başa düşmürsən ki, qarşındakı kimdi? O, SSRİ-nin rəhbərliyində olanda, sən balaca bir qəsəbənin komsomol katibi idin... İndi ona meydan oxumağa cəhd edirsən? Ondan daha güclü görünməyə çalışırsan? Amma nə qədər çalışsan da, yenə də onun yanında kiçiksən, cılızsan...

(Ölkə başçısının nə vaxt hansı hisslər keçirdiyi barədə fikir irəli sürmək yəqin ki, siyasi cəhətdən korrekt deyil. Lakin, məncə, bir yazıçı üçün bu günahı bağışlayarlar).

Həmin videoçarxın altında Koçaryanın bu il verdiyi müsahibə zamanı sifətinin ifadəsinə diqqət kəsildim... Müqayisə elədim... Budur, Heydər Əliyev qarşısında o cür lovğa oda ilə oturan Koçaryanın indi sifəti əyilib, səsi boğulub, içindəki ümidsizliyi heç cür gizlədə bilmir... Çünki atasının qarşısında təkəbbürlə oturub yekə-yekə danışan bu qəsbkarın dərsini oğlu on qat artıqlamasıyla verib. Həm də tək onun yox...

Bütün bu illər ərzində yerə-göyə sığmayan erməni siyasətçilərinin, hərbçilərinin hamısı bu saat eynən həmin görkəmdədi. Ağzının üstündən yumruq zərbəsi almış çaqqallar kimi...

Və öz çaqqal yuvalarında oturub Şuşadakı atəşfəşanlığa baxırlar...

Hardadı Heydər Əliyevin qarşısında lovğa oda ilə oturan Koçaryan? Hardadı Qarabağın müstəqil dövlətçiliyindən dəm vuran Sarkisyan? Hardadı Şuşada yallı gedib "Qarabağ Ermənistandır və nöqtə" deyən Paşinyan?

Yoxdular... Onlar hamısı ölkə başçısının "Qarabağ Azərbaycandır" deyib, yumruğunu havaya qaldıran zaman, üzündə yaranan əbədi fərəh və qürurun içində əriyiblər.

O çöhrədəki sevinc və qürurda tək Paşinyanlar, Koçaryanlar əriməyib. Elə onların xaricdəki havadarlarının, hər vəchlə ölü Ermənistanı reanimasiya eləməyə çalışan qüvvələrin sonsuz cəhdləri də yox olub...

Əvəzində, Şuşanın Cıdır düzündə Heydər Əliyevin səsi yayılır. Hamımızın gözü yaşarır. Sanki hiss edirik ki, Heydər Əliyev uzun illər əvvəl o sözləri o tərzdə, o intonasiya ilə məhz bu gün üçün deməşdi... Bütün varlığıyla inanmışdı ki, onun məhz bu sözləri illər sonra Şuşa üzərində yayılacaq və şanlı zəfər marşına çevriləcək... Çünki o intonasiya məhz müzəffər qalib intonasiyasıdır...

Və nəhayət, yenə "Xarıbülbül" festivalının sonunda səslənən "Qarabağ Azərbaycandır" sədalarına qayıdaq...

O sədalar bütövləşən vətənin, işğaldan azad olan yurdun səadət himninə bənzəyir.

Və mən əminəm ki, illər də keçsə, hər dəfə bu səda səslənəndə, ölkə başçısının yumruğu havaya qalxanda, onun üzündə eyni qürur və fərəh hissini, eyni sevinci görəcəyik. Sanki Şuşa elə bu gün, bu saat azad olunub. Və onun simasındakı bu qürur və fərəh hissi bizə həmin qələbə sevincini təkrar-təkrar yaşadacaq, bizi o müzəffər müharibə günlərinə qaytaracaq, xalqa yumruq kimi birləşdiyi günləri xatırladacaq...

Biz həm başqalarına, həm də özümüzə sübut elədik - Biz lazım gələrsə böyük ola bilirik...

İndi də, bundan sonra da...

Əgər Cıdır düzündə havaya qalxan o yumruq kimi həmişə möhkəm ola bilsək...

* * *

Qonşu ölkələrdə az qala şou-biznes ulduzlarının ali hakimiyyətə gəldiyi bir dövrdə Azərbaycanın başında xalq tərəfindən sevilən Müzəffər Ali Baş Komandanın dayanması həqiqətən də bizə həddsiz qürur verir.

Lakin bu hal paralel olaraq şəxsiyyətsiz dünyanın bir çox cılız liderlərinin böyük qibtəsinə, həm də qıcığına səbəb olur. Axı onların heç biri xalqa verdiyi sözə əməl edərək iqtisadi yüksəlişə nail olması, düşmənə qalib gələrək ölkənin ərazi bütövlüyünü bərpa etməsi və ən əsas da xalqın 30 il sıxılan milli mənliyini, qürurunu göylərə qaldırması ilə fəxr edə bilməz.

O siyasətçilərin əksəriyyətinin nailiyyəti yalnız qısa zamanda xalqın ümidlərini puça çıxarmaqları və nifrət qazanmaqlarıdı. Və bu nifrət dolu siyasi mühitdə yaşayan o şəxsiyyət(siz)lər öz xalqının sonsuz sevgisini qazanmağa nail olan müzəffər siyasi liderin hətta adını eşidəndə belə, qəzəbdən, paxıllıqdan zəncir çeynəyirlər.

Bəli, fizika hər dəfə metafizikaya qalib gələ bilmir. Praqmatizm hər dəfə uğur gətirmir. Biz Şərq xalqıyıq. Biz sevməyi bacarırıq. Ali siyasi rəhbərdən tutmuş, sıravi insanlara qədər. Bu sevgi nə qədər metafizik, irrasional görünsə də, sevirik.

Əgər ölkə başçımızın ürəyində sonsuz vətən sevgisi olmasaydı, o onilliklər boyu vətənin yüksəlişi, ərazi bütövlüyünün bərpa edilməsi üçün bu qədər can qoymazdı. Eyni zamanda qələbəyə bu qədər ürəkdən sevinməzdi.

Əlbəttə ki, İlham Əliyevin bu qələbəsi və öz xalqının gözündə daha da ucalara qalxması sadəcə qıcıq yaratmır, şübhəsiz ki, bir çox kənar qüvvələrdə rəzil diskriminasiya planlarına start verir. Əlalxüsus, əllərində olan medialarda, sosial şəbəkələrin trollar ordusu hazırlanır, ləkələmə planları düşünülür. Bu qarayaxma, şər-böhtan kampaniyaları təkcə onu yox, bütün xalqımızı hədəf alıb. Buna görə də hazırlıqlı və ehtiyatlı olmalıyıq.

Axı onun varlığı və öz xalqıyla bu cür birlik, bütövlük nümayiş etdirməsi, qələbədən sonra daha da güclənməsi onlara sərf eləmir. Onlara sərf edir ki, bütün ölkələrdə xalqın laqeyd olduğu zəif iradəsiz liderlər hakimiyyətdə olsun. Belə zəif liderlərin başı üstündə həmin ölkənin maliyyə-sənaye oliqarxiyası durur. Onlarla isə dil tapmaq, öz iradəni yeritmək daha asandır. Çünki ortada vahid Tanrı - maliyyə amili var.

Güclü siyasi lider isə maliyyə-sənaye oliqarxiyasını yalnız öz maddi mənfəətlərinə yox, toplumun rifahına xidmət etməyə məcbur edə bilir.

Amma, məncə, bütün çirkin planlar əvvəl-axır alt-üst olacaq, heç bir nəticə verməyəcək. Çünki sevgi həmişə nifrətə qalib gəlir. Əlalxüsus toplumun sevgisi... Biz vətənimizi, torpağımızı, yurdumuzu sevə bildiyimiz kimi, Şəxsiyyətlərimizi də sevə bilirik. Bir çox "müasir" xalqların qıcığına səbəb olsa da, şükür ki, bu milli-mənəvi keyfiyyəti hələ də qoruyub saxlaya bilirik.

Bu il onun ad günüdür. Bir ay sonra Müzəffər Ali Baş Komandanımızın altmış yaşı tamam olur.

Təbii ki, ona çoxsaylı təbriklər ünvanlanacaq, xoş sözlər deyiləcək, haqqında yazılar yazılacaq.

Ancaq öz yubileyinə ən böyük təbriki, ən böyük hədiyyəni o özü edib - heç bir təbrik, heç bir hədiyyə onun adının qarşısına əlavə olunan "Müzəffər Ali Baş Komandan" kəlməsini əvəz edə bilməz... Bu qələbədir onun ən böyük hədiyyəsi. Həm özünə, həm də bütün xalqımıza...

Amma bu hələ son deyil... Əminəm ki, onun xalqla bu birliyi həmişə davam edəcək, bütün sınaqlardan çıxacaq və bizi yeni nailiyyətlərə, yeni qələbələrə doğru aparacaq... Yolumuz ucalıqlaradır. Sevgi ilə, səbrlə, əzmlə və ən əsas da dəmir iradə ilə...